

# Cahana sığmayan dahi

Orta əsrlər Azərbaycan poeziyasının inkişafına və zənginləşməsinə mühüm töhfələr verən mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illiyi Lənkəran Regional Mədəniyyət İdarəsinin tabe müəssisələrində də çeşidli tədbirlərlə qeyd olunur.





Lənkəran şəhər Mədəniyyət Mərkəzinin klub filialları böyük söz ustadının yubileyi münasibətilə teatrlaşdırılmış ədəbi-bədii kompozisiyalar, fotostendlər və tematik konsertlər təşkil edib. Türkəkəran kənd Folklor evi və Vel kənd Sənətkarlıq klubunun yaradıcı kollektivi "Nəsimi" filmindən parçalar səhnələşdirib. Boladi-1 kənd Folklor, Boladi-2 kənd Diyarşünaslıq klublarının hazırladığı tematik konsertlər, Ləj və Haftoni kənd sənətkarlıq klublarında bədii qiraət müsabiqəsi, Liman şəhər Folklor klubu və Osaküçə kənd Yaradıcılıq evinin təqdim etdiyi ədəbi-bədii kompozisiyalar yerli sakinlərdə böyük maraq doğurub.

Lənkəran MKS-də "Nəsimi parlaq bir günəşdir" adlı tədbir keçirilib. MKS-nin direktoru Nuranə Nəsirova tədbiri açaraq dahi şairin ədəbiyyat tariximizdə yerindən və rolundan danışıb. Lənkəran Dövlət Universitetinin müəllimi, filologiya üzrə elmlər doktoru Yədulla Ağazadə şairin həyat və fəaliyyəti haqqında söhbət açıb. Tədbirin sonunda kitabxananın fəal oxucuları, şəhər 5 saylı tam orta məktəbin şagirdləri Nəsiminin şeirlərini səsləndiriblər. Şeirlərin qiraətində fərqlənən şagirdlərə MKS-nin fəxri fərmanları təqdim olunub.





***

Astara rayon Artupa kənd Diyarşünaslıq evində Nəsiminin 650 illiyi münasibətilə keçirilən tədbirdə kinorejissor Həsən Seyidbəylinin 1973-cü ildə çəkdiyi "Nəsimi" bədii filmi nümayiş olunub. Kolatan kənd Diyarşünaslıq klubu və Kolatan kənd kitabxana filialı Şiyəkəran kənd 1 saylı tam orta məktəbinin müəllim və şagird kollektivinin iştirakı ilə şairin yubileyinə həsr olunmuş tədbir təşkil edib.

Astara rayon Uşaq musiqi məktəbində "Nəsimi ili" ilə əlaqədar keçirilən tədbirdə əvvəlcə şairin həyat və yaradıcılığını əks etdirən videoçarx nümayiş etdirilib. Sonra məktəbin müəllim və şagirdlərinin ifasında şairin qəzəllərindən ibarət ədəbi-bədii kompozisiya nümayiş etdirilib.

Maşxan kənd Folklor evində kənd tam orta məktəbinin müəllim və şagirdlərinin iştirakı ilə "650 illik Nəsimi çırağı" adlı tədbir keçirilib. Rayonun Kijəbə qəsəbə, Şahağac, Pensər kənd folklor evlərində sərgilər, dəyirmi masalar, Lovayn Sənətkarlıq evi, Toradi, Səncərədi kənd folklor evləri də kənd məktəblərinin iştirakı ilə ədəbi-bədii kompozisiyalar keçiriblər.

Astara rayon Heydər Əliyev Mərkəzində fəaliyyət göstərən rəsm dərnəyi üzvlərinin əsərlərindən ibarət sərgi nümayiş etdirilib. Sərgi iştirakçılarına Nəsiminin poetik dünyası haqqında məlumat verilib.

Ümumrayon "Oxu bayramı"nda və MKS-nin kənd kitabxana filiallarında da mütəfəkkir şairin yubileyi ilə əlaqədar kitab sərgiləri təşkil olunub.

***

Lerik rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) təşkilatçılığı ilə Nəsiminin 650 illiyinə həsr olunmuş tədbir keçirilib. Tədbirdə rayon İcra Hakimiyyəti başçısının müavini Arzu Vəliməmmədova, ziyalılar, mədəniyyət müəssisələrinin kollektivləri, məktəblilər iştirak ediblər. Qonaqlar öncə "Nəsimi 650" adlı kitab sərgisinə baxıblar. Lerik rayon Heydər Əliyev Mərkəzinin direktoru Hüsaməddin Abbasov çıxış edərək Nəsimi poeziyasını sevənləri əlamətdar yubiley münasibətilə təbrik edib. MKS-nin direktoru Tərxan Feyziyev böyük söz ustadının həyat və yaradıcılığı haqqında məlumat verib. Şəhər Uşaq incəsənət məktəbinin, Çayrud Musiqi məktəbinin, şəhər 1, 2 və 3 saylı tam orta məktəblərin şagirdləri Nəsiminin qəzəllərini qiraət edib, musiqi nömrələri səsləndiriblər. Sonda bir qrup fəal oxucuya MKS tərəfindən kitab hədiyyə edilib.

Lerik rayon Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyası (YAP) rayon təşkilatı, Təhsil şöbəsi və Lənkəran Regional Mədəniyyət İdarəsinin birgə təşkilatçılığı ilə Nəsiminin 650 illik yubileyinə həsr olunmuş orta məktəblərin XI sinif şagirdləri arasında bədii qiraət müsabiqəsi keçirilib. Müsabiqədə rayonun 20 ümumtəhsil məktəbi təmsil olunub. Şagirdlər Nəsiminin qəzəllərini həzin musiqi sədaları altında qiraət ediblər.





Münsiflərin qiymətləndirməsi ilə qaliblər müəyyən olunub. Müsabiqədə ilk 3 yeri tutan şagirdlər respublika birinciliyinə vəsiqə qazanıblar.

Lerik Dövlət Rəsm Qalereyası Namiq Bağışov adına şəhər 3 saylı orta məktəbdə Nəsiminin yubileyinə həsr olunmuş sərgi keçirib. Sərgidə məktəb şagirdlərinin şairə həsr etdikləri rəsm əsərləri və s. nümayiş olunub. Məktəblilərin ifasında Nəsiminin qəzəlləri də səsləndirilib.

Mikayıl Qasımov adına Bibiyoni kənd orta məktəbində "Nəsimi ili"nə həsr olunmuş tədbirdə ulu öndər Heydər Əliyevin Nəsiminin yaradıcılığına göstərdiyi diqqət və qayğıdan söz açılıb. Qeyd edilib ki, ulu öndərin təşəbbüsü ilə şairin 600 illik yubileyi UNESCO səviyyəsində qeyd olunub. Daha sonra şagirdlər şairin qəzəllərini söyləyiblər. "Nəsimi" filmindən fraqmentlər nümayiş olunub.






***

Mədəniyyət Nazirliyinin təşəbbüsü, regional idarələrinin iştirakı ilə gerçəkləşən "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalının Lerik şəhərində təşkil olunan tədbiri də sakinlər tərəfindən böyük maraqla qarşılanıb. Tədbirdə "Nəsimi ili" ilə əlaqədar olaraq yerli şair və yazıçıların əsərlərindən ibarət kitab guşəsi qurulub. Nəsimi obrazı canlandıraraq qiraət ustalarının ifasında ədibin "Mərhəba" və "Olmuşam" qəzəlləri səsləndirilib. Böyük şairin kitablarından ibarət sərgi nümayiş olunub.

Festival Lerik rayon Mədəniyyət Mərkəzinin "Bahar" xalq çalğı alətləri ansamblı, Mondigah kənd Folklor evinin oğlanlardan ibarət "Lakto" folklor rəqs qrupu, Cəngəmiran kənd Diyarşünaslıq evinin qızlardan ibarət "Bənövşə" folklor kollektivinin çıxışları ilə davam edib.

Regional idarələrin çadırguşələrində bölgələrimizin zəngin mədəni irsi, sənətkarlıq nümunələri nümayiş olunub. Xalçaçı qızların hana arxasında ilmə vurması, corab toxuması kimi qədim el sənətini əyani şəkildə nümayiş etdirmələri ziyarətçiləri keçmiş dövrlərin ab-havasına kökləyib.

Festivalda uzunömürlülər diyarının 12 nəfər qocaman sakini də iştirak edib. Rayon rəhbərliyi onlarla çay süfrəsi arxasında səmimi söhbət edib, hədiyyələr təqdim olunub.

Tədbirin rəsmi hissəsində rayonun icra başçısı Rövşən Bağırov çıxış edərək festivalın qonaqlarını salamlayıb, bu layihənin əhəmiyyətindən söz açıb. İcra başçısı Lerik rayonunun mədəni həyatında aktiv olan mədəniyyət işçilərini mükafatlandırıb.

Yaradıcılıq festivalının konsert hissəsində regional idarələr üzrə folklor qrupları, yerli incəsənət ustaları və bədii özfəaliyyət kollektivləri maraqlı proqramla çıxış ediblər.



Mədəniyyət: xüsusi buraxılış.- 2019.- iyul. S. 32-33.